**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

**№ 128 (1496) 12 iyul 2017-ci il**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# Unudulmaz səs

**Həsrət qaldıq uca-uca dağlara,**
**Yaşıl meşələrə, buz bulaqlara.**
**Arzum budur o yerlərə biz gedək,**
**Çal ay Xurşud, bir bayatı çal görək.**

**Gözlər həsrət çəkir o yerlər üçün,**
**Yaddaşlar korşalıb, itir günbəgün.**
**Ürəklərdə qaldı min arzu-dilək,**
**Çal ay Xurşud, bir bayatı çal görək.**

**"Cəngi" səsi qoy yayılsın çöllərə,**
**Xəbər çatsın igidlərə, ərlərə.**
**Qələbəyçün çırmalansın qol, bilək,**
**Çal ay Xurşud, bir bayatı çal görək.**

**Xan çinar orda büküb boynunu,**
**Qurtarmadı düşmənlərin oyunu.**
**Hamı qəribsəyib rayon toyunu,**
**Çal ay Xurşud, bir bayatı çal görək.**

**Qurban təpə yolumuzu gözləyir,**
**Həsrət bizi ayaqlayır dizləyir.**
**Ay didərgin, gəl bu dərdə döz görək,**
**Çal ay Xurşud, bir bayatı çal görək.**

Bilmirəm bu şeir kimindi, köçkünlüyün ilk illərində yazılıb. O vaxt hamı Cəbrayılın həsrəti ilə Xurşudun başına yığışardı. Xurşud da qara zurnasını kökləyib yanıqlı-yanıqlı çalardı. Hamı diqqətlə bu ecazkar səsin yanğısına qulaq asar, göz önündə Cəbrayılı canlandırardı.

İnsan təbiətin ayrılmaz bir hissəsidir. Deyirlər ki, insanın doğulduğu yerə, yurda bənzəri var. İnsanın təbiətində fərqli əlamətlərin kökü onun məkanı ilə, onun pərvəriş tapdığı yerlərlə bağlayır. Onun xarakterinin səbəblərini bunda görürlər. Təmizliyinin, aliliyinin duruldoğunun qaynağı insanın yeri, yurdu ilə bağlıdır deyirlər. Bəlkə başqa cür də deyirlər. Amma mən nədənsə bu hikməti inanıram. Əgər mənim rəssamlıq qabiliyyətim olsaydı, əgər mən rənglərin dilini bilsəydim və kimsə mənə desəydi ki, sən indi çox uzaqda qalmış Cəbrayılın insan şəklində bir portretini çək, mən onda tərəddüd etmədən Xurşudun musiqisinin sədaları altında Cəbrayıl dağlarının - Teyin, Diri dağın, Gücgə dağın, Dirinin, Gorda Babanın, Ağoğlanın, Yarahmədli silsiləsinin gözəllik cizgilərini Xurşudun fonunda verərdim. Gördu-Babanın, Eumas-Atanın, Cəbrayıl atanın, Çomaq atanın müdrikliyini bu tabloda əks etdirərdim.

Elə bil dünən idi. Bizdən uzaqda qalan Cəbrayılın "Dəyirman dərəsi"ndə üzü yuxarıda salınan təzə stadionda Xurşud öz başının dəstəsi ilə çalıb-çağıranda hamı sanki qanadlı quşa dönərdi. Bayramlarda Xan Çinarın dibində, "Çinar kəhrizin" üstündə qara zurna havalananda dağlara səs düşərdi.

Elə kənd, elə oba yox idi ki, Xurşud orda xeyir işləri yola verməsin. Səhər-səhər çıxıb təpənin üstündə bir "Vağzalı"çalar, hamını toya çağırardı. Onun zurnasının səsi Ziyaratdan əsən meh kimi ürəkləri oxşayardı. Onun zurnasının səsi Xan Arazın nəğməsi kimi ecazkar olardı. Bu səs ürəkləri yandırıb-yaxardı.

Əliyev Xurşud Mürşüd oğlu 1940-cı ildə Cəbrayılın Yarəhmədli məhəlləsində dünyaya göz açmışdı. Uşaqlıq illəri müharibənin çətin vaxtlarına düşmüşdü. Qoyun-quzu dalınca düşən Xurşud o vaxtlar qarğıdan düzəltdiyi alətlə çalmağa başlamışdı. Atası onun həvəsini görüb, ona zurna almışdı. Hələ 8 yaşından ikən Xurşud zurnada sərbəst çalmağa başlamışdı. Hərdən toylarda ona da söz verirdilər, o da qara zurnanı dilə gətirirdi. O illərdə Cəbrayılda musiqi məktəbi olmadığından o yerli sənətkarlardan öyrənirdi. Ancaq onu da deyək ki, bu sənət Xurşuda bir vergi kimi verilib.

O illər Cəbrayılda istedadlı sənətkarlar olub ki, onlar təkcə Cəbrayılda deyil, qonşu Füzuli, Qubadlı, Zəngilan rayonlarında da toyları yola veriblər. Aşıq Mustafa, Aşıq Abdulla, tarçalan Nəriman, Əhməd Vəliyev, Zahid Kazımov toyların, el şənliklərinin yaraşığı olublar.

Xurşud öyrənib bu sənəti, bu sənətin ustadı olub. Sonralar Cəbrayıldakı "Çinar" ansamblının əsas solistlərindən olub.

İnsan doğulandan ömrünün sonunacan nəyisə axtarır. İnsan öz ürəyini köksündə, sinəsinin altında - qəfəsdəki bülbül kimi saxlayır. O bülbülün dənini ver, suyunu ver, havasını ver, dəxli yoxdur. O bülbül yenə çırpınacaq. O bülbül bu qəfəsdən qopub uçmaq istəyərək. Elə Xurşudun da qəlbində səmalara uçmaq, öz sənəti ilə daha uzaqlara səs salmaq həvəsi baş qaldırırdı. Artıq Azərbaycan radiosunda, televiziyasında "Çinar" ansamblının konsertləri gedirdi. Azərbaycanda bir nömrəli zurna ustası adlanırdı Xurşud.

"Çinar" ansamblının tərkibində Moskvada keçirilən Ümumittifaq festivalında I yerə çıxan, Xurşud Cəbrayılda təntənə ilə qarşılanmışdı. O illər onun yüksəlişinin zirvəsi idi. 1977-ci ildə Litvada keçirilən Beynəlxalq festivalında Xurşud Əliyev sözün əsl mənasında tamaşaçıları valeh etmişdir. Həmin festivalın laureatı adını qazanan Xurşud indi dünayda tanınırdı.

Sonrakı ildə Kremlin Qurultaylar Sarayında keçirilən konsertdə Xurşud ikinci Beynəlxalq mükafatın sahibi oldu.

Onu şöhrəti sərhəd tanımırdı. Hər yerdən dəvət alırdı. Eləcə də el-obanın bütün xeyir işlərində yaxından iştirak edirdi.

Elə bu zamanlar ölkədə hərc-mərclik başladı. Ermənilər Qarabağda ixtişaşlar törətməyə başladılar. Bu xalq, dərdli xalqdır. Yaralarının dərinliyi zamanı məsafəsi ilə uzaqlara gedir. O zamanlara ki, İç Oğuzla Daş Oğuz bir-birinin üstünə qılınc çəkdi.

Cavanşir xəyanətlə öldürüldü. Babək satqınlığın qurbanı oldu. Nə Şah İsmayılın yaratdığı dövlət əbədiliyini qorudu, nə də Şirvanşahlar tarixi ənə-



nələri qoruyub saxlaya bildi. Xanlıqlar bir-biri ilə dil tapmadığı kimi, parçalanmış Azərbaycan da 40-cı illərdə yaranmış şəraitdən bəhrələnmədi.

Və ən başlıcası Qarabağ ambisiyaların güdazına getdi. İyirminci əsrin sonunda tüğyan eyləyən erməni faşizmi qarşısında birləşmək, düşmənə qarşı vahid cəbhə yaratmaq iqtidarında olmadıq.

Sözümün canı odur ki, həmin Qarabağ müharibəsi başlayanda Xurşudun zurnası da qan ağlamağa başladı. Xurşud tez-tez cəbhə bölgələrinə gedir. Əsgərlərimizin qarşısında çıxış edirdi. Əsgərlər onun "Cəngi"sinin sədaları altında döyüşə gedirdilər. Ancaq bu xəyanətlər Xurşudun ürəyinə bir dağ çəkirdi. Cəbrayıl şəhərinə mərmilər, qradlar, alazanlar tökülündə Xurşud kişi anladı ki, daha düşmənin qarşısında duruş gətirmək mümkün olmayacaq.

Bax onda Xurşudun zurnasının səsi dəyişdi. Zildən bəmə düşdü. Bəli, insan necə dəyişirsə, onun sənəti də elə dəyişir. 1993-cü il avqustun 23-də təzdən Xurşud xan çinarın dibində qara zurnanı necə ağlatdısa, yer-göy titrədi. Və elə həmin gündə Cəbrayıl işğal edildi. Ailəsi ilə birlikdə Xurşud kişi də Hacıqabula yola düşdü.

Onu da deyim ki, Xurşud kişi həm də gözəl ailə başçısı idi.

Gəncliyində seçib-sevdiyi öz yerlisi Nazilə xanımla ailə həyatı qurmuşdu. Onların 6 övladı var idi. Validə, Reyhan, Xalidə, Əvəz, Əkbər, Aynurə bu ocaqda böyüyüb başa çatmışdılar.

Bir müddət Hacıqabulda yaşadıqdan sonra Xurşudun ailəsi Bakıya, ordan da Xırdalana pənah gətirdi.

Öz cəbrayıllıları üçün darıxan Xurşud Əliyev Bakıdakı "Xudafərin" şadlıq sarayına dəvət edildi. Burada gözəl bir ansambl yaradıldı. İndi toya gələnlərin gözü Xurşud da qalırdı. Elə ki, qara zurna dinirdi hamı ayağa qalxıb onu alqışlayırdı.

Musiqini dərinliyinə qədər bilən ustad sənətkarımızın ifa etdiyi havalar onu dinləyənlərin sümüyünə düşürdü. İstər oyun havalar olsun istər, lirik havalar Xurşudun ifasında gözəl alınırdı.

O illərdə tez-tez televiziyaya çağrılan Xurşud Əliyevin ifa etdiyi "Dili-dili" mahnısı indi də Azərbaycan televiziyasının qızıl fonunda saxlanılır.

Əlbəttə, fəxri adlar, titullar sadəcə sənət adamının cəmiyyətdəki yerinin təsdiqi üçündür. Fəxri ad insanın mənəvi böyüklüyünün rəsmi etirafıdır.

Xurşud Əliyev heç vaxt belə təmənnada olmayıb. Xalq adamı olub, el ağsaqqalı olub, xalqın, elin sevilən sənətkarı olub.

Ürəklərimiz ayrılıq odunda yananda, könlümüz bir kimsənin görmədiyi, bir kimsənin duymadığı ağrılar ocağında bişəndə, Xurşu kişi bu ağrının, bu odun üstünə su çilədi.

Hərdən ağlamaq istəyirdi Xurşud kişi. Xəlvətə çəkilib göz görməyən bir yerdə səsi gəldikcə qışqırmaq istəyirdi. O yurdun həsrəti onu üzürdü. Bəzən elə ah çəkirdi ki, yer, göy od tutub yanırdı. Gözləri yollarda qalardı. Yuxularında tez-tez Gərəhmətliyə gedərdi. O bağları, o bulaqları dolaşardı. Sonra qayıdıb evin bir küncündə qara zurnanı dilləndirərdi. Xəyalından o doğma yerlər, o mənzərələr ötüb keçərdi. Bax beləcə dolaşardı Diri dağın ətəklərini, Gəyən düzünü, Dağtumas meşələrini, Sirik dağlarını, Çərəkən bağlarını, Lavacan dağını, Arazboyu tarlaları.

Bu həsrət onu yandırırdı, yaxırdı, gündən-günə saralardı, solurdu o böyük ustad.

Və bir gün 2002-ci il iyul ayının 20-də son dəfə uşaqlarını başına yığdı. Hamısı ilə halallaşdı, üz-gözlərindən öpdü. Gözü qara zurnanı axtardı. Götürüb yanıqlı bir hava çaldı. Gözlərində yaş oynadı. Qara zurnanı - Cəbrayıldan gətirdiyi o yadigarı sinəsinin üstünə qoyub gözlərini əbədi yumdu.

Bir gün yaranan bir gün də getməlidir. Sənətsə haqdır, əbədidir, daimidir. Həm də bizim varlığımızı yaşadandı. Ruhun şad olsun, ustad. Elə bu an ürəyimdən bu sızıltı keçdi.

**Əzizim, Diri dağı,**
**Duman, gəl bürü dağı.**
**Yaddan çıxarmı, qardaş,**
**Heç doğma Vətən bağı.**

***Əziz Musa,***
***Pedaqogika üzrə fəlsəfə doktoru***

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ**